

**Kamal Abdullayev**
*BDU-nun tələbəsi*

## SEVGİ MƏNƏ NƏ VERDİ Kİ?!

Nə evim var, nə eşiyim,
Yoxdur körpəm, yox beşiyim,
Çəkirəm həsrətin keşiyin,
Sevgi mənə nə verdi ki?

Acı çəkdim həmişə mən,
Ürək ağlar, üzdür gülən,
İndi kimə yazsan görən?
Sevgi mənə nə verdi ki?

Uzun illər yada verdim,
Öz ömrümü bada verdim,
Sevda - qada verdim,
Sevgi mənə nə verdi ki?

Bu günümə çoxdur gülən,
İstəyimi yoxdur bilən,
Saman altdan su yeridən,
Sevgi mənə nə verdi ki?

Məni sevmə özgəyə get,
Nəyi doğru bilirsən et,
Arzu, istək, kamına yet,
Sevgi mənə nə verdi ki?

Sən tənhasan, mən yalquzaq,
Kim deyərdi biz yol azaq,
Qələm götür birgə yazaq,
Sevgi mənə nə verdi ki?

## GÜNAHKAR

Vicdanı gəl satma vara, dövlətə,
Gün gələr itirər, tapa bilməzsən.
Ölümdən qorxmursan, görəsən niyə
Ki daha ləzzəti dada bilməzsən.

Gözünü tutubdur dünyanın şanı,
Vətənçün ölməyi hədər bilirsən.
Şəhvətlə olmusan şeytanı çapan,
Doğru eşq, sevgidən sən nə bilirsən

Unutdun böyüdüb sevəni səni,
Qədrini bilməyən özgəni seçdin,
Sən hardan qismətin biləsən məni,
Bir cümə Allahı heç yad etmədin.

”Məndən də çox günah edən var” de
Səndən yaxşıları görmürsən əlbət.
Xoş əməl edənə tənəylə gülən,
Sənin bu halına deyilir qəflət.

Qəm yemə, dərd etmə o gün gələcə
Haqqını ayağı altına alan,
Qarşındla diz çöküb bu cür deyəcək
”Al məni ayağın altına, anam”.

Qəddimi bükübdür zamanın yükü,
Oyatmaq çətindir ayıq yatanı.
İnsanlar anlasa sevginin gücü,
Nur saçıb fəth edər dünya, cahanı.

## SƏN

Gözlərimlə qərq oluram,
Gözlərimin gözlərinə.
Ruhum mənə həyat verir,
Mən həyatı sözlərimə.

Dərin-dərin baxışların,
Məni dərinə aparır.
Üz çevirib getmə belə,
Varlığın məni yaşadır.

Sevgi bulud kimi göydə,
Sevgi yağış kimi yerdə.
Mən aşiqin eşqin duysan,
Məcnun gəzir səhra hələ.

Həvəs qədər yaxın olsan,
Nəfəsinə toxunmaram.
Sən ümman ol, mən də qayıq,
Eşqində itib-bataram.